**Kazus**

Faktlar: Ərizəçilər X. və onun azyaşlı övladı A-nın qohumlarıdır, hansı ki 2006-cı ilin avqustunda uşağın atası Z. tərəfindən öldürülmüşlər. 2005-ci lin iyuluna kimi X. və Z., bir yerdə M.T.-nin valideynlərinin evində yaşayırdılar, daha sonra Z. ailə üzvləri arasındakı münaqişəyə görə həmin evi tərk etmişdir. 2006-cı ilin yanvarında X. ərizə ilə müraciət edərək onu öldürməklə hədələdiyinə görə Z. barəsində cinayət işi qaldırılmasını tələb etdi. Araşdırma zamanı Z.-nin yaşadığı evdə və nəqliyyat vasitəsində axtarış aparılmadı. Araşdırma nəticəsində hakimiyyət nümayəndələri psixiatr rəyi aldılar, həmin rəydə Z.-nin gələcəkdə bu kimi hallara yol verə biləcəyi onin psixiatrik müalicəyə ehtiyacı olduğu qeyd olunurdu. 15 mart 2006-cı ildə yerli məhkəmə Z-ni, özünü, X-i və onların uşağı A.-nı bomba partlamaqla öldürməkdə hədələməkdə təqsirli bildi. O, 5 ay müddətə azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırıldı və təhlükəsizlik tədbiri kimi azadlıqdan məhrum etmə müddətində və zərurət olsa, daha sonra məcburi psixiatrik müalicə almağa məhkum edildi. Cəzaçəkmə müəssisəsində onun müalicəsi personalla söhbətlər şəklində həyata keçirilmişdi, onların heç biri psixiatr deyildi. Çünki Məhkəmə qərarında müalicənin necə həyata keçirilməli olduğu aydın şəkildə əks olunmamışdı. Azadlıqdan məhrum etmə növündə cəzanın icrasını tənzimləyən qanunvericilik təhlükəsizlik tədbiri kimi məcburi psixiatrik müalicənin necə həyata keçirilməli olduğunu tənzimləmirdi, bu məsələ cəzaçəkmə müəssisəsi rəhbərliyinin səlahiyyətinə buraxırdı. 28 aprel 2006-cı ildə ikinci instansiya məhkəməsi azadlıqdan məhrum etmə müddətini məhdudlaşdırdı. Z. cəzasını çəkdi və 3 iyul 2006-cı ildə azadlığa buraxıldı. 15 avqust 2006-cı ildə o, X. və A.-nı güllələdi, daha sonra özünü də öldürdü.

*Sual:*

*1. Dövlət tərəfindən 2-ci maddənin pozuntusuna yol verilibmi?*

*2. Pozuntu varsa, hansı aspektdə?*

*Fikrinizi hər bir halda əsaslandırın.*

*Hazırladı: Günel Sevdimalıyeva*